Təlimə Dəstək Mərkəzi

## Müəllim üçün nəzərdə tutulan nümunə

| Qədim Misir dövləti | |
|---|---|
| Misirin coğrafi mövqeyi | Misir Afrikanın şimal-şərqində yerləşir. Bu ölkənin ərazisindən dünyada ən uzun çay olan Nil çayı axır. Qədim misirlilər Nili «Böyük çay» da adlandırmışlar. Nil çayı Aralıq dənizinə tökülür. |
| Şaduf | Şaduf-torpağa basdırılmış dirəkdən və hərəkət edən şüvüllərdən ibarət olub. Onun bir ucuna daş, o birinə dəri tuluq bağlayırdılar. Süni suvarma üçün istifadə edilirdi. |
| Papirus | Qədim misirlilər papirus qamışından kiçik lövhələr kəsir və bu lövhələrin üzərinə yazı yazırdılar. |
| Nom | Nil vadisində əkinçi və maldar tayfalar məskunlaşmışdı. Bu tayfalar öz aralarında birləşərək ayrı-ayrı təşkilatlar yaradırdılar. Bu təşkilatlar «nom»* adlanırdı. (Nom — yunanca «vilayət» deməkdir). |
| Padşahlıq | e.ə. IV minilliyin 2-ci yarısında iki müstəqil padşahlıq — Yuxarı Misir və Aşağı Misir yarandı. Bu iki padşahlıq arasında uzun müddət vahid Misir dövləti yaratmaq uğrunda mübarizə gedirdi.E.ə. IV minilliyin sonunda bu mübarizə iqtisadi cəhətdən daha güclü olan Yuxarı Misirin qələbəsi ilə başa çatdı. |
| Vahid Misir dövləti | E.ə. IV minilliyin sonunda Misir dövləti yarandı. Bu dövlətin paytaxtı Memfis idi. E.ə. II min - illikdə dövlətin paytaxtı Fiv olmuşdur. |
| Sənətkarlıq və ticarət | Dulusçuluq, metal-şləmə, zərgərlik, toxuculuq, daşişləmə, sümükişləmə və s. yaxşı inkişaf etmişdi. Sənətkarlar azad insanlar idi. Misirin ticarət karvanları uzaq Ön Asiya ölkələrinə qədər gedirdi. Gəmiçiliyin inkişafı ticarətin daha da genişlənməsinə səbəb olmuşdu. Bu işdə Nil çayının mühüm rolu vardı. |
| Fironlar | Misir dövlətinin hökmdarı firon adlanırdı. Ölkədə aparılan hər bir mühüm hərbi, dini və inşaat tədbirləri fironun adından həyata keçirilirdi. |
| Çati | Fironun ən yaxın köməkçisi olan ali məmur çati adlanırdı. Adətən, firon bu vəzifəyə öz övladlarını təyin edirdi. Çati ölkənin təsərrüfat həyatını və məhkəmə orqanlarını idarə edirdi. Fironun dəftərxanası və dövlət xəzinəsi çatinin əlində idi. |
| Ordu | Qədim Misirin piyada ordusu vardı. Əsgərlər ox, yay və qısa xəncər və s. ilə silahlandırılırdı. |
| Kahinlər, əyanlar | Qədim Misir dövlətində kahinlər çox böyük nüfuza malik idilər. Onlar fironu yer üzünün tanrısı, «Günəş oğlu» adlandırırdılar. Fironu müqəddəsləşdirib ona sitayiş edirdilər. Fironları dəfn etmək üçün piramidalar* tikilirdi. (Piramida — ehram, fironların iri daşlardan qurulmuş çox nəhəng məqbərəsi) |
| Sosial təbəqələr | Misirdə əhali müxtəlif təbəqələrə bölünmüşdü: birinci təb əqəni varlı əyanlar, kahinlər, varlı icma üzvləri təşkil edirdilər. İkinci təbəqəyə əkinçi icmaların azad üzvləri daxil idi. Üçüncü təbəqə isə, əsasən, qullardan ibarət idi. |
| Canlı ölülər | Qədim Misirdə müharibə zamanı tutulan əsirlər kölə — qul halına salınırdı. Onları «canlı ölülər» adlandırırdılar. Qul əməyindən dövlət və məbəd təsərrüfatında, zadəganların malikanələrində istifadə edilirdi. Qulun sahibi onu döyə, sata və hətta öldürə də bilərdi. |
| Əkinçilər və maldarlar | Əkinçilər və maldarlar «kiçiklər» adlanırdı. |

**Təlimat: Müəllim dərsin sonunda (kişik qruplarla və cütlərlə iş formasında tətbiq oluna bilər) ümumiləşdirmədə istifadə edə bilər. Yekunda qarşılıqlı komanda qiymətləndirmə üsulundan istifadə edərək, müəllim əlində olan nümunəni səsləndirərək formativ qiymətləndirmə apara bilər.**

Hazırladı: Çinara Cəbrayılova

Şagird üçün nəzərdə tutulan nümunə

| Qədim Misir dövləti | |
|---|---|
| Misirin coğrafi mövqeyi | |
| Şaduf | |
| Papirus | |
| Nom | |
| Padşahlıq | |
| Vahid Misir dövləti | |
| Sənətkarlıq və ticarət | |
| Fironlar | |
| Çati | |
| Ordu | |
| Kahinlər, əyanlar | |
| Sosial təbəqələr | |
| Canlı ölülər | |
| Əkinçilər və maldarlar | |

Hazırladı: Çinara Cəbrayılova